| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 28.09.2004 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 767-IIQ |
| **ADI** | İctimai televiziya və radio yayımı haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 09-11-2004, Nəşr nömrəsi: 261), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-11-2004, Nəşr nömrəsi: 11, Maddə nömrəsi: 888) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 09.11.2004 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 210.000.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 01.07.2011 |

**İctimai televiziya və radio yayımı haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

I fəsil
**ÜMUMİ MÜDDƏALAR**

M a d d ə 1. **İctimai televiziya və radio yayımının məqsədi**

İctimai televiziya və radio yayımının məqsədi Azərbaycan Respublikası əhalisinin - bütövlükdə cəmiyyətin, habelə onun ayrı-ayrı təbəqələrinin sosial, elm, təhsil, mədəniyyət, əyləncə və digər sahələrdəki ümumi maraqlarını təmin etməyə, söz və fikir azadlığını, müxtəlif baxış və əqidələri əks etdirməyə yönəlmiş, doğru məzmunlu, tarazlaşdırılmış informasiyalar hazırlamaq, bu informasiyaları müasir texniki və keyfiyyət standartlarına uyğun şəkildə yayımlamaqdır.

M a d d ə 2. **İctimai televiziya və radio yayımı haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

2.1. İctimai televiziya və radio yayımı haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, bu Qanunun tələblərinə uyğun olaraq hazırlanmış digər normativ hüquqi aktlardan ibarətdir.

2.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə bu Qanundan fərqli qaydalar müəyyənləşdirilərsə, həmin beynəlxalq hüquq normaları tətbiq olunur.

M a d d ə 3**. İctimai yayım xidmətinin prinsipləri**

3.0. İctimai yayım xidməti aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:
3.0.1. müstəqillik;
3.0.2. informasiyanın tərəfsizliyi, qərəzsizliyi və doğru-dürüstlüyü;
3.0.3. plüralizm və dözümlülük;
3.0.4. açıq siyasi maraqlardan uzaqlaşma;
3.0.5. ümumi maraqların uzlaşdırılması və təmin edilməsi;
3.0.6. milli özünüdərkin inkişaf etdirilməsi;
3.0.7. universallıq;
3.0.8. rəngarənglik;
3.0.9. başqalarından fərqlənmə.

II fəsil
**İCTİMAİ YAYIM XİDMƏTİNİN TƏŞKİLİ**

M a d d ə 4. **İctimai yayımçının hüquqi statusu**

4.1. İctimai yayımçı kənar müdaxilə olmadan müstəqil fəaliyyət göstərən hüquqi şəxsdir.

4.2. İctimai yayımçı öz əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququna malikdir, bu əmlakdan yalnız ictimai yayımın məqsədləri üçün istifadə edə bilər.

4.3. İctimai yayımçı əmlakdan səmərəli istifadə olunmasına nəzarət edir, onun qorunmasına məsuliyyət daşıyır.

4.4. İctimai yayımçının əmlakı bu Qanunda nəzərdə tutulmuş hallarda satıla bilər.[1]

4.5. İctimai yayımçının əmlakı yeniləşdirilmək məqsədilə satıla bilər.[2]

4.6. İctimai yayımçı verilişlərinin forma və məzmununu özü müəyyən edir və yayımladığı proqramlar üçün qanunvericiliklə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyır.

4.7. İctimai yayımçının adı - İctimai Televiziya və Radio Yayımları Şirkətidir.

4.8. İctimai Televiziya və Radio Yayımları Şirkəti bu Qanun, "Kütləvi informasiya vasitələri haqqında", "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının qanunları və bu Qanunun tələblərinə uyğun şəkildə hazırlanıb Yayım şurası tərəfindən təsdiq olunan Nizamnamə əsasında fəaliyyət göstərir.

M a d d ə 5. **İctimai yayım fəaliyyətinə lisenziya verilməsi və tezliklərin ayrılması**

İctimai yayım fəaliyyətinə dövlət tərəfindən müddətsiz və ödənişsiz lisenziya verilir və tezlik ayrılır.

M a d d ə 6. **İctimai yayımçının hüquqları**

6.0. İctimai yayımçının aşağıdakı hüquqları vardır:
6.0.1. özünün yayım xidmətlərini yaratmaq;
6.0.2. əhalinin ümumi maraqlarını əhatə edən proqramlar (verilişlər) hazırlamaq, bədii, sənədli, cizgi filmləri, habelə seriallar çəkmək, onları yayımlamaq, audio və video yazılarını çoxaltmaq, satmaq və ya icarəyə vermək;
6.0.3. reklam fəaliyyəti ilə məşğul olmaq;
6.0.4. ölkə ərazisində və xaricdə özünün müxbir məntəqələrini, filial və nümayəndəliklərini açmaq;
6.0.5. teleradio yayımı ilə bağlı istənilən mətbu nəşrin təsisçisi olmaq;
6.0.6. öz verilişlərinin proqramını dərc etmək və ya bu hüququ üçüncü şəxsə vermək;
6.0.7. özünün ötürücü qurğular şəbəkəsindən istifadə etmək, bu funksiyanı digər subyektə həvalə etmək və ya ötürücü qurğular şəbəkəsini icarəyə vermək;
6.0.8. proqramlarını peyk rabitəsi, kabel şəbəkəsi, yaxud digər yerüstü texniki qurğular vasitəsilə ölkənin bütün ərazisinə ötürmək;
6.0.9. əlavə informasiya, internet və digər yayım xidmətləri, yaxud texnologiyanın ən yeni sahələrində fəaliyyət göstərmək;

6.0.10. özünün arxiv materiallarını ölkədaxili yayımçılara və ya yayımdankənar subyektlərə icarəyə vermək;

6.0.11. əlavə və ya tamamlayıcı xidmətlər, o cümlədən xarici dillərdə informasiya xidməti göstərmək üçün üçüncü şəxslərlə əməkdaşlıq etmək, yaxud üçüncü şəxsin bu sahəyə ayırdığı nizamnamə kapitalındakı payını əldəetmək;

6.0.12. nizamnamə vəzifələrini yerinə yetirmək üçün zəruri olan və qanunla qadağan edilməyən digər fəaliyyətlə məşğul olmaq.

M a d d ə 7. **İctimai yayımçının vəzifələri**

7.1. İctimai yayımçının vəzifələri aşağıdakılardır:[3]

7.1.1. ölkədə və dünyada baş verən mühüm hadisələr, dövlət orqanlarının, bələdiyyələrin, siyasi partiyaların, ictimai birliklərin, dini qurumların və kommersiya təşkilatlarının fəaliyyəti barədə vətəndaşların qərəzsiz və tarazlaşdırılmış informasiya almaq hüququnun həyata keçirilməsi;

*7.1.1-1 Azərbaycan Respublikasının Dövlət Himninin hər səhər ictimai yayımın əvvəlində "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə uyğun olaraq səsləndirilməsi;*[4]

7.1.2. milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyub inkişaf etdirən maarifləndirici, məlumatlandırıcı və əyləndirici proqramlar vasitəsilə vətəndaşların maraqlarının təmin olunması;

7.1.3. Azərbaycan və dünya müəlliflərinin əsərləri üzrə yüksək sənətkarlıq nümunəsi olan tamaşaların, bədii, sənədli və cizgi filmlərinin, serialların, incəsənət əsərlərinin, mühüm tarixi və mədəni tədbirlərin lentə alınması vəgələcək nəsillər üçün ictimai yayımçının qızıl fondunda saxlanması;

7.1.4. hazırlanıb efirə verilən proqramlarda vətəndaşların öz fikirlərini bildirməsi üçün bərabər imkanlar yaradılması;

7.1.5. vətəndaşların cavabvermə hüququnun təmin edilməsi;

7.1.6. informasiyanın tərəfsizliyinin, qərəzsizliyinin və doğru-dürüstlüyünün təmin edilməsi;

7.1.7. pornoqrafik materialların, zorakılığı, qəddarlığı, dini və irqi ayrı-seçkiliyi təbliğ edən proqramların yayımlanmaması;

7.1.8. vətəndaşların şəxsi və ailə həyatına, şərəf və ləyaqətinə hörmətlə yanaşılması;[5]

7.1.9. yayım zamanı peşə etikasına riayət olunması;[6]

*7.1.10. tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirilməməsi, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirildiyi əsərlərin, tamaşaların, proqramların efirdə, kabel yayımı vasitəsilə açıq yayımlanmaması;* [7]

*7.1.11. uşaqlar arasında dövriyyəsi qadağan edilən və ya məhdudlaşdırılan informasiyanın yayılması ilə bağlı "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə riayət edilməsi;*[8]

*7.1.12. proqramlarda (verilişlərdə) dövlət dilindən istifadənin və dövlət dili normalarına riayət edilməsinin təmin olunması.* [9]

*7.2. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ictimai yayımçı tütündən istifadənin və sağlamlığa zərər vuran digər vərdişlərin mənfi təsiri barədə müvafiq icra hakimiyyəti orqanlarının, elm müəssisələrinin və qeyri-hökumət təşkilatlarının dəstəyi ilə xəbərdaredici, maarifləndirici və tərbiyəvi mövzuda verilişlər hazırlayır və bu mövzulara ayda 90 dəqiqədən az olmayan efir vaxtı ayırır. Bu verilişlərin 45 dəqiqəsi saat 17.30 - 23.00 arasında olmaqla saat 08.00 - 23.00 arasında yayımlanır və verilişlərin surəti hər ay Milli Televiziya və Radio Şurasına təhvil verilir.*

M a d d ə 8. **İctimai yayım xidmətlərində kadrların seçilməsi və əmək müqavilələrinin bağlanması**

8.1. İctimai yayım xidmətlərinin rəhbərləri, ~~baş redaktorlar,~~ baş rejissorlar müsabiqə əsasında seçilir, Yayım şurası tərəfindən sadə səs çoxluğu ilə təsdiq olunurlar.[10]

8.2. Müsabiqə komissiyasının yaradılması və müsabiqənin keçirilməsiqaydaları, əmək müqaviləsinin şərtləri qanunvericiliyə uyğun olaraq Baş direktor tərəfindən hazırlanıb təsdiq edilir.

8.3. Yayım şurası müsabiqə əsasında seçilmiş yayım xidmətlərinin rəhbərlərini təsdiq etmədikdə bu Qanunun 8.1-ci maddəsində göstərilən qaydada yeni namizədlər seçilir. Əgər Yayım şurası seçilmiş namizədləri ikinci dəfə təsdiq etməzsə, Baş direktor həmin namizədləri birbaşa təyin edə bilər.

8.4. İctimai yayım xidmətində işə götürülən, irəli çəkilən və ya ictimaiyayımın başqa xidmətlərində daha yüksək vəzifəyə təyin olunan kadrlara irqinə, cinsinə, dini mənsubiyyətinə, yaxud siyasi baxışlarına görə məhdudiyyət qoyula bilməz.

8.5. İşçi öz vəzifəsindən şəxsi məqsədlər üçün, yaxud siyasi partiyaların,kommersiya və digər təşkilatların məqsədləri üçün istifadə edə bilməz.

8.6. İşçi ictimai yayımçının razılığı olmadan dövlət orqanlarından, kommersiya qurumlarından və digər təşkilatlardan təlimat ala, onların tapşırığını yerinə yetirə bilməz.

M a d d ə 9. **İctimai yayım sənədlərinin saxlanması**

9.1. İctimai teleradio verilişlərinin materialları (lent yazıları, əlyazmaları,məktublar, qoşma sənədlər) televiziya və radio yayımı haqqında qanunvericiliklə müəyyənləşdirilmiş qaydada və müddətdə saxlanılır.

İctimai yayımçı:

9.2.1. daxili tənzimləyici sənədləri;

9.2.2. əmlak üzərində hüquqlarım təsdiq edən sənədləri;

9.2.3. Yayım şurasının və Direktorlar şurasının iclaslarının protokollarını;

9.2.4. Baş direktorun əmr və sərəncamlarını;

9.2.5. təftiş və audit yoxlamalarının nəticəsi barədə aktları və arayışları;

9.2.6. işçilərlə bağlanmış əmək müqavilələrini;

9.2.7. mühasibat *uçotu* sənədlərini;[11]

9.2.8. bank, maliyyə və məhkəmə sənədlərini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada və müddətdə saxlayır.

M a d d ə 1 0. **İctimai yayım fəaliyyətində şəffaflıq**

10.1. İctimai yayımçının iqtisadi fəaliyyətinin şəffaflığını təmin etməkməqsədilə cari və ya Yayım şurasının qərarı əsasında fövqəladə audit yoxlamalar keçirilir.
10.2. Təftiş və ya audit yoxlamaların nəticələri kütləvi informasiya vasitələrində dərc olunur.

## III fəsil
## İCTİMAİ YAYIM PROQRAMLARI

M a d d ə 1 1. **İctimai yayım proqramlarında rəsmi məlumatların verilməsi**

11.1. İctimai yayımçı rəsmi məlumatları heç bir dəyişiklik etmədən efirəverir. "Rəsmi məlumat" dedikdə, insanların həyatı, sağlamlığı və yaşayış məntəqələrinin normal fəaliyyəti üçün təhlükə törədən fövqəladə hallar, təbii fəlakətlər və qəzalar barədə dövlət hakimiyyəti orqanlarının verdikləri xəbərlər, habelə cəmiyyətin bilgiləndirilməsi üçün zəruri olan, dövlət hakimiyyəti orqanlarının rəsmi mövqeyini əks etdirən açıqlamalar, bəyanat və məlumatlar başa düşülür.
11.2. İctimai yayımçı rəsmi məlumatların məzmununa görə məsuliyyətdaşımır.

*M a d d ə 11-1.* ***Dini ekstremizm əleyhinə xüsusi əməliyyatlar barədə ictimaiyyətə məlumatın verilməsi***[12]

*11-1.1. Dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması zonasında kütləvi informasiya vasitələri işçilərinin fəaliyyəti əməliyyat aparan orqan tərəfindən müəyyən edilir.*
*11-1.2. Dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat barədə ictimaiyyətə məlumatlar əməliyyat aparan orqanın müəyyən etdiyi formada və həcmdə verilir.*
*11-1.3. "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 9.3-cü maddəsində nəzərdə tutulmuş məlumatların yayılmasına yol verilmir.*

M a d d ə 1 2. **İctimai yayım proqramlarının dili**

12.1. İctimai yayım proqramları, bir qayda olaraq, Azərbaycan Respublikasının dövlət dilində yayımlanır. "Proqramların dili" dedikdə, qaçan sətirlər (subtitr) və təsviri (mətni) açıqlayan səs başa düşülür.
12.2. Xarici dildə hazırlanan proqramlar, bu dildəki tədris və retranslyasiya edilən proqramlar istisna edilməklə, Azərbaycan dilində subtitrlərlə müşayiət olunur, bədii, sənədli filmlər, çıxışlar və s. Azərbaycan dilinə tərcüməedilir.
12.3. İctimai yayım proqramlarına Azərbaycan Respublikasının ərazisindəyaşayan milli azlıqların dillərində verilişlər daxil edilir.
*12.4. İctimai yayım proqramlarında dövlət dili normalarına riayət edilməlidir.*[13]

M a d d ə 1 3. **İctimai yayım proqramlarına verilən tələblər**

13.1. İctimai yayımçı bu Qanunla müəyyənləşdirilmiş məqsədlərini həyata keçirmək üçün proqramlar hazırlayarkən cəmiyyətdəki siyasi əqidələri, dini baxışları, ictimai fikir və rəyin müxtəlif cərəyanlarını, habelə ölkə vətəndaşlarının hüquq bərabərliyini nəzərə almalıdır.
13.2. Proqramlar milli-mənəvi dəyərləri, milli adət və ənənələri, mədəniyyət və incəsənətin bütün rəngarəngliyini özündə əks etdirməlidir.
13.3. İctimai yayım proqramlarında siyasi baxışların birtərəfli qaydadaüstünlüyünə və ya təbliğatına yol verilmir. Plüralizm və dözümlülük prinsipinə uyğun olaraq cəmiyyətdəki müxtəlif nəzər nöqtələri, problemlərə yanaşma, şərhlər və analitik təhlillər alternativ əsaslarla və diskussiya formasında aparılır.
13.4. Yeni və orijinal teleradio məhsullarının yaradılmasına, bədii filmlərin, serialların, teleradio tamaşalarının efirə verilməsinə diqqət artırılmalıdır.
13.5. Dünya ölkələrinin ən yaxşı ~~seriallarının,~~ bədii, sənədli və cizgi filmlərinin Azərbaycan dilinə çevrilərək və (və ya) Azərbaycan dilində subtitrlə müşayiət edilərək tamaşaçılara çatdırılmasına şərait yaradılmalıdır. Azərbaycan dilinə çevrilmədən Azərbaycan dilində subtitrlə müşayiət edilərək yayımlanan həmin verilişlərin həcmi müvafiq dövlət orqanı tərəfindən müəyyən edilir.[14]
13.6. Proqramlarda Azərbaycanda istehsal olunan kino, tele, video və radio məhsullarının yayımlanmasına üstünlük verilir.
13.7. Proqramlarda istifadə olunan informasiyaların məzmunu, mənbəyivə ədalətliliyi araşdırılıb dəqiqləşdirilməlidir.
13.8. Xəbərlər proqramında informasiyalar əhatəli, tərəfsiz, qərəzsiz,müstəqil olmalı, cəmiyyətdəki fərqli nöqteyi-nəzərlərə uyğun hazırlanmalı, şərhlər informasiyadan dəqiq şəkildə seçilməlidir.
13.9. İctimai yayım proqramlarında ölkənin digər yayımçılarının proqramlarından ödənişsiz sitat və fraqmentlər gətirilə bilər, bu şərtlə ki, həmin sitat və fraqmentlərin ümumi həcmi 90 saniyədən çox olmasın və təsvirin üstündə emblemi göstərilməklə mənbəyi açıqlansın.
13.10. İctimai yayımçı insanın immunçatışmazlığı virusu infeksiyasının profilaktikası barədə maarifləndirici verilişlərin, sosial reklam çarxlarının nümayişi üçün ayda 20 dəqiqədən az olmayan efir vaxtı ayırmalı və həmin verilişlərin daha əlverişli vaxtda yayımını təmin etməlidir. *Sosial reklam "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yayımlanır.*[15]

M a d d ə 1 4. **İctimai yayım zamani reklama verilən tələblər**

14.1. *İctimai yayım proqramlarında (verilişlərində) yayımlanan reklam asan başa düşülən olmalı və həmin proqramların*

*(verilişlərin) elementlərindən vizual (görüntülü) və (və ya) akustik (səsli) şəkildə fərqlənməlidir.*[16]

14.2. Reklamlar proqramların məzmununa, reklamçılar ictimai yayımçının müstəqilliyinə təsir göstərməməlidirlər.

14.3. Müntəzəm olaraq xəbərlər proqramı, yaxud müasir siyasi mövzularda veriliş aparan şəxslər teleradio reklamlarında çıxış edə bilməzlər.

14.4. İctimai yayım proqramlarında (verilişlərində) reklam "Reklam haqqında" və "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq hazırlanır və yayımlanır.[17]

~~14.4. Reklam ayrı-ayrı verilişlərin arasında blok şəklində efirə verilir.~~

~~14.5. Müstəqil hissələrdən ibarət televerilişlərdə, idman proqramlarında, fasilələrlə gedən tədbirlərin və tamaşaların yayımında reklam yalnız müstəqil hissələrin arasında və ya fasilələrdə verilə bilər.~~

~~14.6. Ayrıca verilişlərdə bir reklam blokunun sonu ilə o biri reklam blokunun əvvəli arasındakı zaman kəsiyi bu Qanunun 14.8-ci maddəsində göstərilən hallardan başqa, 30 dəqiqədən az olmamalıdır.~~

~~14.7. Xəbərlər proqramı, dini və uşaq verilişləri, həmçinin 30 dəqiqədən az çəkən seriallar, əyləncəli proqramlar, aktual siyasi verilişlər, sənədli filmlər reklamla kəsilə bilməz.~~

~~14.8. Bədii və televiziya filmləri, 45 dəqiqədən bir və ya bir neçə 45 dəqiqə çox çəkən fasiləsiz proqramlar yalnız hər 45 dəqiqədən sonra reklamla kəsilə bilər. Proqramların nümayişi bir və ya bir neçə 45 dəqiqədən azı 20 dəqiqə çox çəkdikdə əlavə olaraq bir reklam da verilə bilər.~~

~~14.9. Reklamına Azərbaycan Respublikasının qanunvericiliyi ilə məhdudiyyətlər qoyulmuş məhsulların, habelə saat 7.00-dan saat 23.00-dək spirtli içkilərin reklamına yol verilmir. Narkotik vasitələrin, psixotrop maddələrin, silahların, pornoqrafiyanın, tütün məmulatlarının, uşaqların fiziki, əqli və mənəvi inkişafına ciddi zərbə vuran məhsulların, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulduğu hallarda digər məhsulların reklamı qadağandır.~~[18]

~~14.10. Proqramlar arasında teleticarət reklamı yerləşdirilə bilər, bu şərtləki, alğı-satqı, xidmət və icarə barədə birbaşa təkliflər edilən reklamın ümumi həcmi gün ərzində 30 dəqiqədən çox olmasın.~~

~~14.11. Reklam ictimai yayım proqramlarının gündəlik həcminin 15 faizindən, bir saat ərzində reklam çarxının ən yüksək həddi 9 dəqiqədən çox olmamalıdır.~~

~~14.12. Radioda reklamların gündəlik həcminin ümumi müddəti 90 dəqiqədir.~~

M a d d ə 1 5. **İctimai yayım xidmətinə sponsorluq**

15.1. *Sponsor reklamı şəxsin sponsor qismində göstərilməsi şərtilə yayımlanır. Sponsor reklamında yalnız sponsorun adı, fəaliyyət sahəsi və əmtəəsi haqqında məlumat, əmtəə nişanı, firmanın loqosu qaçan sətirlə göstərilməklə, vizual, yaxud audio vasitələrlə təqdim oluna bilər. Hər bir ictimai yayım proqramında (verilişində) verilən sponsor reklamında bu məlumatların ümumi həcmi 2 dəqiqədən çox olmamalıdır.*[19]

15.2. Sponsor verilişlərin məzmununa, yerləşdirilməsinə, ictimai yayımçının məsuliyyətinə və müstəqilliyinə təsir göstərə bilməz.

15.3. Sponsorun maliyyə yardımı ilə hazırlanmış verilişlərdə sponsorun və ya üçüncü şəxsin mallarının (xidmətlərinin) alğı-satqısına, yaxud icarəsinə təhrikə yol verilməməlidir.

15.4. *"Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu ilə reklamı qadağan edilmiş malların istehsalı və (və ya) satışı ilə məşğul olan şəxslər sponsor ola bilməzlər.*[20]

15.5. Xəbərlər və müasir siyasi mövzularda hazırlanan proqramlar sponsorluq predmeti ola bilməz.

## IV f ə s i l
## İCTİMAİ YAYIM XİDMƏTİNİN İDARƏ OLUNMASI

M a d d ə 1 6. **İctimai yayımçının səlahiyyətlərinin həyata keçirilməsi**

16.1. İctimai yayımçının bu Qanunla müəyyən edilən səlahiyyətləri Yayım şurası və Baş direktor tərəfindən həyata keçirilir.

16.2. Yayım şurasının üzvləri, Baş direktor və onun müavinləri heç bir siyasi partiyanın üzvü ola bilməzlər.

M a d d ə 1 7. **Yayım şurasının formalaşdırılması**

17.1. Yayım şurası proqramların yayımı zamanı Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əməl edilməsi üzərində nəzarəti həyata keçirən və bu sahədə həlledici qərarlar qəbul etmək səlahiyyətinə malik olan nəzarətedici orqan kimi yaradılır.

17.2. Yayım şurasının üzvlüyünə aşağıdakı təşkilatlar (təşkilatlar qrupu) hər biri ümumi yığıncaqda sadə səs çoxluğu ilə iki namizəd irəli sürür və təsdiq edilmək üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edirlər:

17.2.1. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası;

17.2.2. *müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilat;* [21]

17.2.3. Mətbuat Şurası;

17.2.4. Sahibkarlar Şurası;

17.2.5. gənclər təşkilatları;

17.2.6. qadın cəmiyyətləri;

17.2.7. idman federasiyaları;

17.2.8. dini konfessiyalar;

17.2.9. yaradıcılıq təşkilatları.

17.3. Bu Qanunun 17.2.5-17.2.9-cu maddələrində göstərilən təşkilatlar qrupu namizəd seçmək üçün hər birindən bərabər sayda nümayəndə olmaqla birgə ümumi yığıncaq keçirir, namizədlər bu yığıncaqda sadə səs çoxluğu ilə seçilirlər. Əgər birgə ümumi yığıncaq vahid namizədlər seçmək üçün razılığa gələ bilməzsə, iştirakçıların hər birindən bir nəfər olmaqla namizədlərin vahid siyahısı tərtib olunur, bu siyahı birgə ümumi yığıncaqda təsdiq edilərək Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir.

17.4. Azərbaycan Respublikasının Milli Məclisi bu Qanunun 17.2-ci maddəsində göstərilən təşkilatların (təşkilatlar qrupunun) hərəsindən bir namizəd olmaqla 9 nəfərdən ibarət tərkibdə 17.2.1-17.2.3-cü maddələrdə göstərilən təşkilatların namizədlərini 6 il, 17.2.4-17.2.6-cı maddələrdə göstərilən təşkilatların (təşkilatlar qrupunun) namizədlərini 4 il, 17.2.7-17.2.9-cu maddələrdə göstərilən təşkilatlar qrupunun namizədlərini isə 2 il müddətinə Yayım şurasına üzv seçir.

17.5. Yayım şurasının üzvləri öz aralarından sədr seçirlər.

17.6. Müddəti başa çatmış Yayım şurası üzvlərinin yerinə bu Qanunun 17.2-ci maddəsində göstərilən qaydada yeni namizədlər irəli sürülür və bu Qanunun 17.4-cü maddəsində göstərilən qaydada 6 il müddətinə təsdiq olunurlar.

17.7. Fəaliyyətinə bu Qanunla nəzərdə tutulmuş qaydada vaxtından əvvəl xitam verilən Yayım şurası üzvünün boş qalan yerinə seçim müddəti başa çatanadək təkrar seçki keçirilmir.

17.8. Bu Qanunun 17.7-ci maddəsində nəzərdə tutulan hallarda Yayım şurası üzvlərinin sayı 6 nəfərdən az olarsa, o zaman fəaliyyətinə vaxtından əvvəl xitam verilmiş Yayım şurası üzvlərinin boş qalan yerlərinə bu Qanunun17.2-ci və 17.4-cü maddələrində göstərilən qaydada təkrar seçkilər keçirilir.

17.9. İlkin seçim müddəti başa çatmış Yayım şurası üzvlərinin təkrar seçilmək üçün bu Qanunun 17.2-ci maddəsinə uyğun şəkildə namizədlikləri irəli sürülə bilər. Yayım şurası üzvünün dalbadal iki dəfə seçilmək hüququvardır.

M a d d ə 1 8. **Yayım şurasının üzvlərinə verilən tələblər**

18.1 Yayım şurasının üzvləri dövlət orqanlarında və bələdiyyələrdə, mükiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq hər hansı teleradio yayımında, reklam agentliyində işləyə bilməzlər.

18.2. Yayım şurasının üzvləri onların namizədliyini irəli sürmüş təşkilatların deyil, bütövlükdə cəmiyyətin maraqlarının müdafiəçisi kimi çıxış edirlər.

18.3. Yayım şurasının üzvləri ictimai yayımçının müstəqilliyinə zərər vuran bəyanatlar verə və ya öz vəzifələrindən siyasi, kommersiya, yaxud şəxsi məqsədlər üçün istifadə edə bilməzlər.

18.4. Yayım şurasının üzvləri teleradio, mətbuat, informasiya, mədəniyyət, maliyyə, teletexnika və digər aidiyyəti sahə üzrə iş təcrübəsi olan ali təhsilli Azərbaycan Respublikası vətəndaşlarından seçilir.

M a d d ə 1 9. **Yayım şurası üzvünün səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi**

19.1. Yayım şurası üzvünün səlahiyyətlərinə yalnız aşağıdakı hallarda vaxtından əvvəl xitam verilə bilər:

19.1.1. öz ərizəsi ilə;

19.1.2. Yayım şurasının üzvlüyü ilə bir araya sığmayan vəzifə tutduqda;

19.1.3. Azərbaycan Respublikası *vətəndaşlığına xitam verildikdə*, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya başqa dövlət qarşısında öhdəlik götürdükdə;[22]

19.1.4. məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi ilə fəaliyyət qabiliyyətsizliyi, yaxud məhdud fəaliyyət qabiliyyətli olması təsdiq olunduqda, cinayət törətməkdə təqsirli bilindikdə və ya qanunvericiliklə müəyyənləşdirilmiş qaydada itkin düşmüş və ya ölmüş elan edildikdə;

19.1.5. üzrsüz səbəbdən altı ay Yayım şurasının iclaslarında iştirak etmədikdə;

19.1.6. vəzifəsinin öhdəsindən gələ bilmədikdə.

19.2. Yayım şurası öz üzvünü bu Qanunun 19.1.6-cı maddəsində nəzərdə tutulmuş əsaslara görə vəzifədən azad etmək barədə Azərbaycan Respublikasının Milli Məclisi qarşısında məsələ qaldırmaq üçün azı altı üzvünün razılığı ilə qərar qəbul etməlidir.

19.3. Azərbaycan Respublikasının Milli Məclisi Yayım şurasının təsdiqolunmaq üçün təqdim etdiyi qərarı 63 səs çoxluğu ilə rədd edə bilər.

M a d d ə 2 0. **Yayım şurasının səlahiyyətləri**

20.1. Yayım şurasının səlahiyyətləri aşağıdakılardır:

20.1.1. öz reqlamentini müəyyənləşdirir;

20.1.2. Yayım şurası haqqında Əsasnaməni hazırlayıb təsdiq edir;

20.1.3. Baş direktorun seçilməsi və ya vəzifəsinə vaxtından əvvəl xitam verilməsi üçün azı altı üzvünün razılığı ilə qərar qəbul edir;

20.1.4. Baş direktorun təqdimatı ilə onun müavinlərini vəzifəyə təyin və ya vəzifədən azad edir;[23]

20.1.5. vəzifə təlimatları və daxili tənzimləyici normalar hazırlayıb qəbul edir;

20.1.6. ictimai yayımçının proqram strategiyasını və siyasətini təsdiq edir;

20.1.7. lazım bildikdə yayımdan sonra proqramların monitorinqini keçirir;

20.1.8. ictimai yayımçının büdcəsini və illik hesabatmı təsdiq edir;

20.1.9. ictimai yayımın konsepsiyasını hazırlayır~~, texniki avadanlıqların və yayımın keyfiyyət standartlarını müəyyənləşdirir~~;[24]

20.1.10. səbəbini yazılı şəkildə açıqlamaqla proqramlarla bağlı bu Qanunun tələblərinin pozulması barədə Baş direktora xəbərdarlıq edir və müvafiq tədbirlər görülməsinə dair göstəriş verir;

20.1.11. azı altı üzvünün razılığı ilə Direktorlar şurasının qərarını ləğv edir;

20.1.12. ildə bir dəfə öz fəaliyyəti barədə ictimaiyyətə hesabat verir və bu hesabatı mətbuatda dərc etdirir;

20.1.13. bu Qanunla və Yayım şurası haqqında Əsasnamə ilə müəyyənləşdirilmiş digər vəzifələri yerinə yetirir.

20.2. Yayım şurası üzvlərinin Baş direktorun cari fəaliyyətinə hər hansı şəkildə müdaxiləsinə yol verilmir.

20.3. Aşağıdakı hallarda Yayım şurasının razılığı tələb olunur:

20.3.1. televiziya tamaşaçılarının və radio dinləyicilərinin seçim imkanlarını genişləndirmək məqsədilə yeni proqram xidmətləri yaradıldıqda;

20.3.2. daşınmaz əmlakın ~~əldə olunması və~~ satılması zamanı;[25]

20.3.3. bank kreditləri alındıqda və maliyyə öhdəlikləri götürüldükdə.

20.4. Yayım şurası ən azı altı ayda bir dəfə iclas keçirir.[26]

20.5. Yayım şurasının sədri və ya üzvlərdən üç nəfərinin tələbi ilə növbədənkənar iclas keçirilə bilər.

20.6. İclaslar üzvlərin yandan çoxu iştirak etdikdə səlahiyyətlidir.

20.7. Bu Qanunla nəzərdə tutulmuş hallardan başqa, Yayım şurası iştirak edənlərin sadə səs çoxluğu ilə qərarlar qəbul edir. Səslər bərabər olduqda sədr həlledici səs üstünlüyünə malikdir.

20.8. Baş direktor və Direktorlar şurasının üzvləri Yayım şurasının iclaslarında məşvərətçi səslə iştirak etmək hüququna malikdirlər.

20.9. Yayım şurasının üzvlərinə İctimai Televiziya və Radio Yayımları Şirkətinin büdcəsindən ildə bir dəfə Baş direktorun bir aylıq vəzifə maaşı həcmində pul verilir.

M a d d ə 2 1**. Baş direktor**

21.1. Baş direktor ictimai yayımçının yaradıcılıq və işgüzar fəaliyyətini əlaqələndirən, bu Qanunla onun səlahiyyətinə aid edilmiş məsələlər üzrə qərarlar qəbul edən, bütövlükdə yayım fəaliyyətinin təşkilinə cavabdeh olan vəzifəli şəxsdir və Yayım şurası tərəfindən 4 il müddətinə seçilir.

21.2. Baş direktor:

21.2.1. proqramların bu Qanunun və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarının tələblərinə uyğun hazırlanmasına nəzarət edir və məsuliyyət daşıyır;

21.2.2. ictimai yayımçının cari fəaliyyətinə rəhbərlik edir;

21.2.3. ictimai yayımçını məhkəmədə, dövlət orqanlarında, xaricdə və beynəlxalq təşkilatlarda təmsil edir;

21.2.4. əmrlər verir, müqavilələr bağlayır, bu sənədlərin tələblərinə əməl olunmasına nəzarət edir;

21.2.4-1. texniki avadanlıqların və yayımın keyfiyyət standartlarını müəyyən edir;[27]

21.2.5. əmlakın qorunmasına və yalnız ictimai yayımın məqsədləri üçün istifadə olunmasına məsuliyyət daşıyır.

21.3. Baş direktor aşağıdakı məsələlər üzrə müstəqil qərarlar qəbul edir:

21.3.1. verilişlərin yaradıcı ideyası və istehsalı;

21.3.2. verilişlər setkasının işlənməsi;

21.3.3. yayım fəaliyyətinin təşkili, cari məsələlərin həlli;

21.3.4. bu Qanunla nəzərdə tutulan hallardan başqa, ictimai yayımçının əmlakı üzərində sahiblik, istifadə və sərəncam verilməsi;

21.3.5. müxbir məntəqələrinin, filial və nümayəndəliklərin yaradılması;

21.3.6. bu Qanunla nəzərdə tutulan hallardan başqa, kadrların seçilib işə götürülməsi və idarə olunması;

21.3.7. bu Qanunla nəzərdə tutulan hallardan başqa, malların və xidmətlərin alğı-satqısı, icarəsi və istifadə olunması;

21.3.8. bu Qanunla nəzərdə tutulan hallardan başqa, əlaqələr qurulması, danışıqlar aparılması və müqavilələr bağlanması;

21.3.9. bu Qanunla nəzərdə tutulan hallardan başqa, büdcənin tərtibi və icrası.

21.4. Baş direktor, İctimai Televiziya və Radio Yayımları Şirkətinin Nizamnaməsinə uyğun olaraq, yayım xidmətlərinin rəhbərlərindən ibarət Direktorlar şurası yaradır.

21.5. Baş direktor, Nizamnaməyə uyğun olaraq, Direktorlar şurasına rəhbərlik edir. Baş direktorun müavinləri şurada üzv kimi təmsil olunurlar.

21.6. İctimai Televiziya və Radio Yayımları Şirkətinin ümumi yığıncağında işçilərin arasından sadə səs çoxluğu ilə Direktorlar şurasına ən azı 2 nəfər üzv daxil edilə bilər.

21.7. Direktorlar şurası Nizamnamədə nəzərdə tutulan məsələlər üzrə qərarlar qəbul etmək səlahiyyətinə malikdir.

21.8. Baş direktor aşağıdakı məsələləri Direktorlar şurası ilə razılaşdırmalıdır:

21.8.1. proqram siyasətinin ümumi xəttini və əsas prinsiplərini;

21.8.2. həmkarlar ittifaqı təşkilatları ilə müqavilələri;

21.8.3. büdcənin tərtibini və icrası barədə illik hesabatı;

21.8.3-1. texniki avadanlıqların və yayımın keyfiyyət standartlarını;[28]

21.8.4. ictimai yayımçının büdcəsində nəzərdə tutulmayan xərcləri.

21.9. Baş direktorun təkrar seçilmək hüququ vardır.

21.10. Baş direktorun səlahiyyətlərinə yalnız aşağıdakı hallarda vaxtından əvvəl xitam verilə bilər:

21.10.1. öz ərizəsi ilə;

21.10.2. elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, digər ödənişli vəzifə tutduqda;

21.10.3. Azərbaycan Respublikası *vətəndaşlığına xitam verildikdə*, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya başqa dövlət qarşısında öhdəlik götürdükdə; [29]

21.10.4. məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi ilə fəaliyyət qabiliyyətsizliyi, yaxud məhdud fəaliyyət qabiliyyətli olması təsdiq olunduqda, cinayət törətməkdə təqsirli bilindikdə və ya qanunvericiliklə müəyyənləşdirilmiş qaydada itkin düşmüş və ya ölmüş elan edildikdə;

21.10.5. vəzifəsinin öhdəsindən gələ bilmədikdə.

M a d d ə 2 2. **İctimai yayımçının fəaliyyətinə hüquqi nəzarət**

22.1. İctimai yayımçının fəaliyyətinə hüquqi nəzarət televiziya və radio yayımı sahəsində müvafiq dövlət orqanı tərəfindən həyata keçirilir.

22.2. Televiziya və radio yayımı sahəsində müvafiq dövlət orqanı bu Qanunun tələblərini pozan və ya poza bilən istənilən hərəkət (hərəkətsizlik) barədə ictimai yayım xidmətinin idarəetmə orqanlarına sorğu göndərə və ya qanun pozuntusunun qarşısının alınmasını tələb edə bilər.

22.3. İctimai yayımın idarəetmə orqanları sorğuya qənaətləndirici cavab vermədikdə və ya özlərinin nəzarətedici funksiyalarını yerinə yetirmədikdə televiziya və radio yayımı sahəsində müvafiq dövlət orqanı:

22.3.1. daha sərt tədbirlər görülməsini tələb edir və qanun pozuntusunun aradan qaldırılması üçün konkret vaxt müəyyənləşdirir;

22.3.2. məhkəməyə müraciət edir.

22.4. İctimai yayımçının televiziya və radio yayımı sahəsində müvafiq dövlət orqanının hərəkətlərindən məhkəməyə şikayət etmək hüququ vardır.

22.5. Bu maddənin tələblərinin yerinə yetirilməsi üçün həyata keçirilənistənilən tədbir ictimai yayımçının informasiya almaq və fikri ifadə etmək hüququnu məhdudlaşdırmamalıdır.

22.6. Qanunun tələblərini pozmuş ictimai yayımçı ona tətbiq edilmiş müvafiq məsuliyyət tədbirinin məzmunu barədə məlumatı müvafiq dövlət orqanı tərəfindən müəyyən edilmiş vaxt ərzində yayımlamağa borcludur.[30]

## V fəsil
## İCTİMAİ YAYIM XİDMƏTİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ

### M a d d ə 23. İctimai yayım xidmətinin maliyyə mənbələri

23.1. İctimai yayım xidməti aşağıdakı mənbələr hesabına maliyyələşdirilir:

23.1.1. bu Qanımla başqa qayda müəyyənləşdirilməyibsə, abonent haqqından daxilolmalar və dövlət büdcəsindən ayırmalar;[31]

23.1.2. sponsor yardımı;

23.1.3. fiziki və hüquqi şəxslərin ianələri;

23.1.4. reklamdan əldə olunan gəlirlər;

23.1.5. audio və audiovizual proqramların satışından daxilolmalar;

23.1.6. öz məhsulu olan serialların, tamaşaların, bədii, sənədli, cizgi vədigər filmlərin satışından əldə edilən vəsaitlər;

23.1.7. konsertlərin və şouların təşkilindən daxilolmalar;

23.1.8. Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər mənbələr.

23.2. Bu Qanunun 23.1.1-ci maddəsi qüvvəyə minənədək, digər mənbələrdən əldə edilən gəlirlər də nəzərə alınmaqla, ictimai yayımın məqsədlərinin həyata keçirilməsi, fasiləsiz fəaliyyəti və perspektivli inkişafı üçün dövlət büdcəsindən hər il müvafiq miqdarda maliyyə vəsaiti ayrılır və bu, dövlətbüdcəsində ayrıca sətirdə göstərilir.[32]

23.3. Bu Qanunun 23.1.1-ci maddəsi qüvvəyə minəndən sonra da, digərmənbələrdən daxilolmalar nəzərə alınmaqla, ~~ictimai yayımçının perspektivli inkişafı üçün~~ dövlət büdcəsindən ayırmalar davam edir.[33]

23.4. Dövlət büdcəsindən maliyyələşmə dövlət hakimiyyəti orqanlarının ictimai yayıma müdaxiləsi üçün əsas ola bilməz.

23.5. İctimai yayım xidmətinin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən abonent haqqı hesabına maliyyələşdirilməsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.[34]

## VI fəsil
## YEKUN MÜDDƏALAR

### M a d d ə 24. Abonentlərin hüquqlarının qorunması

24.1. Hər kəsin ictimai yayımçıya öz irad və təkliflərini bildirmək hüququ vardır.

24.2. Baş direktor daxil olmuş irad və təklifləri araşdırır, lazım gəldikdə tədbirlər görür, görülmüş tədbirlərin nəticələri vaxtlı-vaxtında, lakin 3 aydan gec olmayaraq mətbuatda dərc olunur.

24.3. İctimai yayımçı vətəndaşların yalan informasiya verilməsi, şərəf və ləyaqətlərinin alçaldılması, işgüzar mövqelərinə zərər vurulması barədə təkzib, düzəliş və cavab verilməsi tələblərinə kütləvi informasiya vasitələri haqqında qanunvericiliklə müəyyənləşdirilmiş qaydada əməl edir.

24.4. İctimai yayım zamanı hüququnun pozulması barədə ərizə ilə müraciət edən hər kəs öz vəsaiti hesabına həmin verilişin audio və video surətlərini ala bilər.

### M a d d ə 25. Qanunun müddəalarının pozulmasına görə məsuliyyət

Bu Qanunun müddəalarının pozulmasına görə fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

### M a d d ə 26. Qanunun qüvvəyə minməsi

26.1. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

26.2. Bu Qanunun 23.1.1-ci maddəsi 2014-cü il yanvarın 1-dən qüvvəyə minir.[35]

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 sentyabr 2004-cü il
767-IIQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 3 mart 2006-cı il tarixli 81-IIIQD nömrəli Qanun (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 3, maddə 224**)
2. 20 oktyabr 2006-cı il tarixli **167-IIIQD** nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,**

2006-cı il, 12, maddə 1005)

3. 10 aprel 2007-ci il tarixli 307-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 5, maddə 435**)

4. 1 may 2007-ci il tarixli 324-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 5, maddə 442**)

5. 7 dekabr 2007-ci il tarixli 509-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 12, maddə 1218**)

6. 30 sentyabr 2009-cu il tarixli 886-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 5 noyabr 2009-cu il, 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 772**)

7. 21 dekabr 2010-cu il tarixli **37-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 fevral 2011-ci il, 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 02, maddə 70**)

8. 29 iyun 2012-ci il tarixli **411-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 sentyabr 2012-ci il, 200, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 09, maddə 839**)

9. 03 aprel 2015-ci il tarixli **1246-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 07 may 2015-ci il, 097, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 493**)

10. 6 oktyabr 2015-ci il tarixli **1374-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 22 noyabr 2015-ci il, 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1281**)

11. 28 oktyabr 2016-cı il tarixli **370-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 dekabr 2016-cı il, 276, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 1988**)

12. 4 may 2018-ci il tarixli **1129-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyun 2018-ci il, 133, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1170**)

13. 2 noyabr 2018-ci il tarixli **1329-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 dekabr 2018-ci il, 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2478**)

14. 9 aprel 2019-cu il tarixli **1563-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 23 aprel 2019-cu il, 87 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 599**)

15. 19 noyabr 2019-cu il tarixli **1692-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 22 dekabr 2019-cu il, 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1882**)

16. 8 may 2020-ci il tarixli **95-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 2 iyun 2020-ci il, 103, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 673**)

17. 8 may 2020-ci il tarixli **93-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 iyun 2020-ci il, 121 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 671**)

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 29 iyun 2012-ci il tarixli **411-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 sentyabr 2012-ci il, 200, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 09, maddə 839**) ilə 4.4-cü maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~4.4. İctimai yayımçının əmlakı özəlləşdirilə, girov qoyula, yaxud bu Qanunla müəyyənləşdirilmiş hallardan başqa, satıla bilməz.~~

[2] 29 iyun 2012-ci il tarixli **411-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 sentyabr 2012-ci il, 200, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 09, maddə 839**) ilə 4.5-ci maddədə "**yalnız yeniləşdirilmək və genişləndirilmək**" sözləri "**yeniləşdirilmək**" sözü ilə əvəz edilmişdir.

[3] 19 noyabr 2019-cu il tarixli **1692-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 22 dekabr 2019-cu il, 285 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1882**) ilə 7.0, 7.0.1 – 7.0.10-cu və 7.1-ci maddələr müvafiq olaraq 7.1, 7.1.1 – 7.1.10-cu və 7.2-ci maddələr hesab edilmişdir.

[4] 8 may 2020-ci il tarixli **95-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 2 iyun 2020-ci il, 103 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 673**) ilə yeni məzmunda 7.1.1-1-ci maddə əlavə edilmişdir.

[5] 20 oktyabr 2006-cı il tarixli **167-IIIQD** nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1005**) ilə 7.0.8-ci maddəsində "**şəxsi**" sözündən sonra "**və ailə**" sözü əlavə edilmişdir.

[6] 2 noyabr 2018-ci il tarixli **1329-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 dekabr 2018-ci il, 281 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2478**) ilə 7.0.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir.

[7] 2 noyabr 2018-ci il tarixli **1329-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 dekabr 2018-ci il, 281 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2478**) ilə yeni məzmunda 7.0.10-cu və 7.1-ci maddələr əlavə edilmişdir.

[8] 19 noyabr 2019-cu il tarixli **1692-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 22 dekabr 2019-cu il, 285 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1882**) ilə 7.1.10-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 7.1.11-ci maddə əlavə edilmişdir.

[9] 8 may 2020-ci il tarixli **93-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 iyun 2020-ci il, 121 , Azərbaycan

**Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 671**) ilə 7.1.11-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 7.1.12-ci maddə əlavə edilmişdir.

[10] 29 iyun 2012-ci il tarixli **411-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 sentyabr 2012-ci il, 200, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 09, maddə 839**) ilə 8.1-ci maddədən "**baş redaktorlar,**" sözləri çıxarılmışdır.

[11] 9 aprel 2019-cu il tarixli **1563-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 23 aprel 2019-cu il, 87 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 599**) ilə 9.2.7-ci maddəyə "**mühasibat**" sözündən sonra "**uçotu**" sözü əlavə edilmişdir.

[12] 28 oktyabr 2016-cı il tarixli **370-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 dekabr 2016-cı il, 276 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 1988**) ilə yeni məzmunda 11-1-ci maddə əlavə edilmişdir.

[13] 8 may 2020-ci il tarixli **93-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 iyun 2020-ci il, 121 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 671**) ilə yeni məzmunda 12.4-cü maddə əlavə edilmişdir.

[14] 29 iyun 2012-ci il tarixli **411-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 sentyabr 2012-ci il, 200, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 09, maddə 839**) ilə 13.5-ci maddədən "**seriallarının,**" sözü çıxarılmışdır, "**çevrilərək**" sözündən sonra "**və (və ya) Azərbaycan dilində subtitrlə müşayiət edilərək**" sözləri əlavə edilmişdir və bəndə **ikinci cümlə** əlavə edilmişdir.

[15] 21 dekabr 2010-cu il tarixli **37-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 fevral 2011-ci il, 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 02, maddə 70**) ilə yeni məzmunda 13.10-cu maddə əlavə edilmişdir.

4 may 2018-ci il tarixli **1129-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyun 2018-ci il, 133 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1170**) ilə 13.10-cu maddəyə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[16] 4 may 2018-ci il tarixli **1129-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyun 2018-ci il, 133 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1170**) ilə 14.1-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~14.1. Yayımlanan reklamın xüsusi nişanı olmalı, televiziyada görüntülü, radioda səsli vasitələrlə proqramın başqa hissələrindən birmənalı şəkildə fərqlənməlidir.~~

[17] 30 sentyabr 2009-cu il tarixli 886-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 5 noyabr 2009-cu il, 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 772**) ilə 14.4-14.12-ci maddələr çıxarılmışdır və 14.4-cü maddə əlavə edilmişdir.

[18] 3 mart 2006-cı il tarixli **81-IIIQD** nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 3, maddə 224**) ilə 14.9-cu maddə yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyasında deyilirdi :
~~14.9.Reklamına Azərbaycan Respublikasının qanunvericiliyi ilə məhdudiyyətlər qoyulmuş, o cümlədən uşaqların fiziki, əqli və mənəvi inkişafına ciddi zərbə vuran məhsulların reklamı qadağandır~~

7 dekabr 2007-ci il tarixli 509-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 12, maddə 1218**) ilə 14.9-cu maddəsinin ikinci cümləsində **"Narkotik vasitələrin,"** sözlərindən sonra **"psixotrop maddələrin,"** sözləri əlavə edilmişdir.

[19] 4 may 2018-ci il tarixli **1129-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyun 2018-ci il, 133 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1170**) ilə 15.1-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~15.1 Bütövlükdə, yaxud qismən sponsor yardımı ilə hazırlanan verilişlərin əvvəlində və sonunda onların kim tərəfindən maliyyələşdirildiyi açıq diktor mətni, yaxud subtitrlər vasitəsilə elan olunmalıdır. Bağlanmış müqaviləyə uyğun olaraq verilişdə sponsorun elan edilməsi üçün onun emblemini, firma nişanını göstərmək, yaxud digər formalardan istifadə etmək olar.~~

[20] 4 may 2018-ci il tarixli **1129-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyun 2018-ci il, 133 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1170**) ilə 15.4-cü maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~15.4 Reklamı qadağan olunmuş malların (xidmətlərin) sahiblərinin, yaxud bu malların alğı-satqısını, icarəsini həyata keçirən şəxslərin sponsorluğuna yol verilmir.~~

[21] 6 oktyabr 2015-ci il tarixli **1374-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 22 noyabr 2015-ci il, 257 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1281**) ilə 17.2.2-ci maddə yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~17.2.2. Azərbaycan Milli Elmlər Akademiyası;~~

[22] 03 aprel 2015-ci il tarixli **1246-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 07 may 2015-ci il, 097, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 493**) ilə 19.1.3-cü maddədə "**vətəndaşlığından çıxdıqda**" sözləri "**vətəndaşlığına xitam verildikdə**" sözləri ilə əvəz edilmişdir.

[23] 30 sentyabr 2009-cu il tarixli 886-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 5 noyabr 2009-cu il, 247,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 772)** ilə 20.1.4-cü maddədə "**3 müavinini**" sözləri "**müavinlərini**" sözü ilə əvəz edilmişdir.

[24] 29 iyun 2012-ci il tarixli **411-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 sentyabr 2012-ci il, 200, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 09, maddə 839)** ilə 20.1.9-cu maddədən "**, texniki avadanlıqların və yayımın keyfiyyət standartlarını müəyyənləşdirir**" sözləri çıxarılmışdır.

[25] 29 iyun 2012-ci il tarixli **411-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 sentyabr 2012-ci il, 200, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 09, maddə 839)** ilə 20.3.2-ci maddədən "**əldə olunması və**" sözləri çıxarılmışdır.

[26] 30 sentyabr 2009-cu il tarixli 886-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 5 noyabr 2009-cu il, 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 772)** ilə 20.4-cü maddədə "**iki**" sözü "**altı**" sözü ilə əvəz edilmişdir.

[27] 29 iyun 2012-ci il tarixli **411-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 sentyabr 2012-ci il, 200, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 09, maddə 839)** ilə 21.2.4-1-ci maddə əlavə edilmişdir.

[28] 29 iyun 2012-ci il tarixli **411-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 sentyabr 2012-ci il, 200, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 09, maddə 839)** ilə 21.8.3-1-ci maddə əlavə edilmişdir.

[29] 03 aprel 2015-ci il tarixli **1246-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 07 may 2015-ci il, 097, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 493)** ilə 21.10.3-cü maddədə "**vətəndaşlığından çıxdıqda**" sözləri "**vətəndaşlığına xitam verildikdə**" sözləri ilə əvəz edilmişdir.

[30] 3 mart 2006-cı il tarixli **81-IIIQD** nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 3, maddə 224**) ilə 22.6-cı maddə əlavə edilmişdir.

[31] 29 iyun 2012-ci il tarixli **411-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 sentyabr 2012-ci il, 200, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 09, maddə 839)** ilə 23.1.1-ci maddədə "**daxilolmalar**" sözündən sonra "**və dövlət büdcəsindən ayırmalar**" sözləri əlavə edilmişdir.

[32] 10 aprel 2007-ci il tarixli **307-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 5, maddə 435**) ilə 23.2-ci maddəsində "**artan**" sözü "**müvafiq**" sözü ilə əvəz edilmişdir.

[33] 29 iyun 2012-ci il tarixli **411-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 sentyabr 2012-ci il, 200, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 09, maddə 839)** ilə 23.3-cü maddədən "**ictimai yayımçının perspektivli inkişafı üçün**" sözləri çıxarılmışdır.

[34] 1 may 2007-ci il tarixli **324-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 5, maddə 442**) ilə 23.5-ci maddəsində "**xidmətinin**" sözündən sonra "**müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən**" sözləri əlavə edilmişdir.

[35] 30 sentyabr 2009-cu il tarixli 886-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 5 noyabr 2009-cu il, 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 772)** ilə 26.2-ci maddədə "**2010-cu il**" sözləri "**2014-cü il**" sözləri ilə əvəz edilmişdir.